

# Yada düşdü

Ədəbi-bədii, nostalji jurnal

2011-ci ildən çapa başlamışdır

Aprel-May-İyun 2016 / 2(24)

- OVÇULUĞA MEYL SALDIM...
- "ŞƏMŞİRƏM... BÖYÜK AŞIQLARIN DƏFTƏRİYƏM MƏN"
- ÖMRÜN 98 BAHARI
- ÖYÜNMƏYƏ HAQQI OLAN ŞAİR



# ADANADA ÜÇ GÜN

## VƏ YA FATİH ƏRDOĞANA HƏSR OLUNMUŞ SİMPOZİUM



**Sona Çərkəz,**
BDU-nun müəllimi

**May ayının 10-dur. İstanbula uçmaq üçün sübh tezdən hava limanına doğru yola çıxıram. Oradan Əskişəhərə gedib Tamilla xanımla görüşəcəyəm və ikimiz də Adanada uşaq yazarı Fatih Ərdoğanın adına düzənlənən simpoziumda iştirak edəcəyik. Bu niyyətlə ayrılıram doğma şəhərdən, lakin neçə gündür ki, həmişəki kimi, qanıma-canıma hopmuş təlaş və həyəcan, geridə qalan hər kəsdən narahatçılıq məni ağuşundan buraxmaq istəmir.**

Ən çox da anamdan nigaranam. Həyat qəribədir, insan yaşamı boyu yeni görüşlərə, yeni çalışmalara can atır, bir yerdə dayanmaq olmur, nələrləsə məşğul olmaq, görmək, öyrənmək, demək və yazmaq da bizlərin işi, əməli hesab olunur. Bu həyatda insanın bacardığı qədər işgüzar olub layiqli yaşaması həyatın rəngarəngliyini və mənasını artırır. Çünki insan ömrü yaşadığı dövrün nəbziylə bir vurmalıdır, elə olmasa qanqala bənzəyər onun var olması. O üzdən ağrı-acımızı içimizə gömüb işimizi layiqincə görməliyik. Mən hər hansı bir toplantı və ya adi görüşdə belə olarkən tək onu düşünürəm ki, Bakı Dövlət Universitetinin humanitar fakültələr üzrə rus dili kafedrasının müəlliməsiyəm. Müstəqil Azərbaycanın bu günü ilə, onun alicənab və qürurlu prezidenti İlham Əliyevin varlığı ilə qürur duyan

qadınam, anayam, nənəyəm. Qarabağ ağrılı, Qərbi Azərbaycan nisgilli bir ölkənin vətəndaşıyam, və sözümə-söhbətimə də bu yanğıyla başlayıram. Deyirlər səni anlaya bilən qiymətini düzgün verməyə çalışar, anlamayandan heç nə gözləmə. Bu yöndən ayrı-ayrı illərdə dəfələrlə qardaş Türkiyəmizin Tokat, Niksar, Əskişəhər bölgələrinə dəvət olunmama və görüşlərə qatılmama səbəbkar olan, Çərkəzin sağlığında ikən doğmalaşdığım həmkarım, artıq Türkiyə vətəndaşı olan, yüksək kürsülərdən Azərbaycan söyləyib düşüncələrini hər kəsə ürəklə çatdıra bilən Əskişəhər Osmanqazi Universitetinin professoru Tamilla Əliyevaya təşəkkür edirəm. Onu da deyim ki, insan sevdiyi işlə məşğul olarkən ətrafında ona dəyər verənləri görüb quş kimi qanad açır, daha səylə və əzmlə çalışır. Yeri gəlmişkən onu da deyim ki, mən belə diqqəti illərdir ki, öz kafedra müdirim, ləyaqətli və dəyərli insan Ədibə xanım Paşayevadan artıqlaması ilə görüb yaşayıram. Onu da bilirəm ki, hər zaman dəyərlilər və böyük ürəklilər qarşısındakının yaxşı tərəfini görməyə çalışır. Əsli-kökü ucalarda olan, sanballı və nəcib insana - Ədibə xanıma, mənə, adi vətəndaşlıq borcunu yerinə yetirməyə çalışan bir müəlliməyə səmimi münasibətinə görə, "nə yaxşı ki, varsınız və belə əvəzsiz insansınız" deyib təşəkkür edirəm. Deyirlər, elə insanlar var ki, yaxşılıq üçün doğulublar. Bəli, Ədibə xanım belələrindəndir, çünki elə görüb, elə götürüb öz ailəsindən. O, böyük və nəcib nəslin nümayəndəsidir, o, sadəlik və xeyirxahlıq simvolu olan Mir Cəlal Paşayevin qızıdır. Bütün səmimiyyətimlə deyə bilərəm ki, dünya belə insanların üzünə gözəldir... Tanrı yaxşıları qorusun.

İndi isə Adanada may ayının 11, 12, 13-ü keçirilən simpozium haqda. Bu simpozium o qədər yüksək səviyyədə təşkil olunmuşdu ki, görmək və orada olub o insanların xoş təlaşına şahidlik etmək bir dastan idi. İstər Çukurova Universitetinin düzənləmə qurucuları, istərsə də Əskişəhərdən gəlmiş təşkilatçılar xüsusi əzmkarlıqla bu simpoziuma hazırlaşıb və keçirilməsində də onu nümayiş elətdirə bildilər. Uşaq ədəbiyyatının hərtərəfli inkişafında Fatih Ərdoğan yaradıcılığının hər sahəsinə toxunan yazarlar, şairlər və alimlər gözəl məruzələri ilə bu simpoziuma rəng qata bildilər. Üç gün ərzində orada görüşdüyüm simpozium iştirakçıları da, universitet əməkdaşları da ömrüm boyu xatirimdən çıxmayacaqlar. Onların bizə olan isti münasibəti o qədər munis idi ki, insanın ürəyini riqqətə gətirirdi. Göz yaşlarını belə gizlətmirdilər bizdən ayrılarkən. Bu hissləri qardaş ölkədə dönə-dönə bizə yaşadan hər kəsə təşəkkürlərimi və sevgilərimi "Yada düşdü" jurnalı vasitəsi ilə göndərir və heç zaman yaddan çıxmayacaqlarını onlara bildirirəm. Onu da deyim ki, Tamilla ilə mənim (təvazökarlıqdan uzaq olsa da), çıxışlarımız bəyənilərək alqışlarla qarşılandı. Fatih Ərdoğan çox böyük uşaq yazarı olaraq Türkiyədə tanınmış biri idi və bu simpozium onun yaradıcılığına yerində həsr olunmuşdu. Onunla söhbət etmək, yaxından tanış olmaq







VII. ULUSAL ÇOCUK VE GENÇLİK EDEBİYATI YAŞAYAN YAZARLAR SEMPOZYUM DİZİSİ ÇOCUK VE GENÇLİK EDEBİYATINDA FATİH ERDOĞAN SEMPOZYUMU

11-12-13-Mayıs 2016 ADANA TÜRKİYE

**KATILIM BELGESİ**

Sayın Sona ÇERKEZ
Başöğretmen, Yazar, Araştırmacı

Prof. Dr. Tahir BALCI
Düzenleme Kurulu Adına

da çox xoş idi. Uşaq ədəbiyyatında xalq yaradıcılığından bacarıqla istifadə edə bilmək önəmli işdir yazar üçün. Fatih Ərdoğan da bunlardan yetərincə öz əsərlərində istifadə etdiyi üçün gözəl və oxunaqlı kitablar müəllifidir. Yaşayan uşaq yazarı F.Ərdoğana həsr olunmuş bu simpozium haqda geniş təəssüratlarımı bir məqaləyə sığışdırmam qeyri-mümkündür.

Onu da deyim ki, hələ Türkiyəyə getməmişdən bu yazıçının kitablarını oxuyub və bir neçə məqalə yazaraq "Ədalət" və "Kaspi" qəzetlərinin oxucularına təqdim edə bilmişdim. Onun dili, üslubu və xalq yaradıcılığından məharətlə istifadə edərək üzə çıxardıqları həqiqətən təqdirəlayiq əsərlərdir. Uşaqlar üçün yazılan kitablarında yazıçı saf və unudulmaz ilk sevgini gənclərə çox gözəl və təmiz dildə ustalıqla çatdıra bilir. Ona görə o kitablar böyüklərin də əlindən düşmür. Mən onun əsərləri barədə burada yazdığım qəzet məqalələrini də özümlə apararaq Adanada müəllifə və simpozium iştirakçılarına təqdim elədim. Fatih Ərdoğan çox məmnunluqla təşəkkür eləyib qəzetləri aldı. Çıxışlarımızdan sonra da çox maraqlı görüşlərimiz oldu. Yadımdan çıxmayan görüşlərdən birini də simpoziumun keçirilməsində çox böyük əməyi olan Prof. Dr. İlkər bəy təşkil etdi. Həmyerlimiz, aktyor Cahangir Zeynalovun Adanada həmin universitetdə çalışdığını söyləyərək Cahangir müəllimə zəng elədi ki, Azərbaycandan qonaqlar var, az sonra Cahangir bəyi qarşımda gördüm və unudulmaz aktrisamız, böyük sənətkar Nəsibə xanım Zeynalovanın oğlunun bu diqqətindən fəxarət hissi keçirdim.

Bu yazımda bu gün sevgi və sayğılarla Adanadakı simpoziumdan xatirimdə əbədi olaraq qalacaq insanlara öz səmimi təşəkkürlərimi çatdırmaq istəyərdim. Prof. Dr. Tahir Balçıya, Dr. İlker Çöltüyə, onun xanımına, bacısı Doç. Dr. Cavidan Çöltü İmren xanıma, gözəllər gözəli, oranın tələbələri olan iki qoşa Gizemlərə və ümumiyyətlə bütün Çukurova Universitetinin əməkdaşlarına Azərbaycandan ürək dolu salamlarımı, Sizin bu sanballı və oxunaqlı jurnal vasitəsi ilə çatdırmağı özümə borc bilirəm. Sizə də mənə bu fürsəti verdiyiniz üçün qəlbdən təşəkkür edirəm. Sağ olun.